

**HƏSƏN HƏSƏNOV,**
"Xalq qəzeti"nin redaktoru

## PREZİDENT HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DİASPORU

Diaspor (yunan dilində — səpələnmə) dedikdə hər hansı bir xalqın və ya etnik qrupun deportasiya, soyqırım təhlükəsi, iqtisadi, coğrafi, siyasi və digər amillərin təsiri altında tarixi Vətəndən uzaqda yaşayan hissəsi nəzərdə tutulur. İlk vaxtlar bu termin yalnız eradan əvvəl 6-cı əsrdə Fələstindən qovulmuş yəhudilərə şamilən işlədilsə də, sonralar digər xalqlara da aid olundu. Bir tərəfdən xalqların qarşılıqlı surətdə zənginləşməsinə, əlaqələrin daha da güclənməsinə təsirli impuls verən diaspor digər tərəfdən də zaman keçdikcə assimilyasiya proseslərinin dərinləşməsi ilə milli-mənəvi dəyərlərin, dil amilinin, hətta mənsub olduğu antropoloji tipin sıradan çıxması, aşınması təhlükəsi ilə üzləşir. Bu neqativ proseslərin qarşısının alınması üçün diasporlar təşkilatlanır, tarixi Vətənlə əlaqələri gücləndirir, vahid mövqedən çıxış etməyə çalışır. Əks halda milli-mənəvi dəyərlərin aşınması nəticəsində bir, və ya bir neçə nəsildən sonra milli-etnik mənsubiyyət itirilir və onun daşıyıcıları tarixi Vətəndən uzaq düşürlər. Buna görə də milli mənliyini qavrayan, dəyərləndirən fərdlər və fərdlər qrupu tarixən milli-etnik toplumun kompakt yaşayışının mümkün variantlarından mövcud reallıq çərçivəsində bəhrələnməyə üstünlük vermişlər.

Diasporu təşkil edən toplum ötən əsrlərdə öz varlığını qorumaq, milli, etnik, dini, irqi təzyiqləri dəf etmək üçün insanların milli, bioloji qeyri-bərabərliyini iddia edən mürtəce yevgenikanın təzahürlərinə qarşı daim mübarizə aparmaq məcburiyyətində qalmışdır. "Ali" və "aşağı", "hakim" və "kölə" irqlər haqqında zərərli ideoloji təlimlər diasporun sosial-siyasi həyatına ağır zərbələr vurmuşdur. Ciddi mənəvi-psixoloji basqı, maddi sıxıntı, davamlı təcridolunma, təhlükəsizliyin təminatı və digər problemlər dağınıq diasporun təşkilatlanmasını zəruri edən ilkin şərtlər idi. Diaspor təşkilatlandıqca problemlərin həlli bir qayda olaraq asanlaşır, dövlətin və cəmiyyətin aparıcı strukturlarının dəstəyi təmin edilirdi. Təbii ki, bu prosesdə diasporun kəmiyyət göstəriciləri, təmsil etdiyi dövlətin nüfuzu, mövcud əlaqələri və digər amillər mühüm rol oynayır.

Azərbaycanın yerləşdiyi mühüm geostrateji məkan, təbii sərvətlərimiz tarix boyu yadelli dövlətlərin diqqətini cəlb etmişdir, aramsız hücumlar, müharibələr əhalinin yerindən-yurdundan didərgin düşməsi ilə nəticələnmişdir. Bu səbəbdən Azərbaycan-türk diasporunun tarixi qədimdir. Müxtəlif dövrlərdə azərbaycanlılar ictimai-siyasi və sosial-iqtisadi proseslərin təsiri altında bütün dünyaya səpələnmişlər. Xarici ölkələrdə Azərbaycan diasporunun formalaşmasının, inkişafının və fəaliyyətinin özünəməxsus xüsusiyyətləri vardır. Tarixi Azərbaycan ərazisində yaranmış dövlətlər iqtisadi, siyasi və hərbi qüdrətini daha da gücləndirmək məqsədilə əhalinin miqrasiyasından müəyyən dərəcədə faydalanmışlar. Müasir Azərbaycan Respublikası ilə yanaşı, Cənubi Azərbaycan, Qərbi Azərbaycan, Borçalı, Dərbənd ərazisindən müxtəlif səbəblər üzündən xarici ölkələrə miqrasiya etmiş milyonlarla soydaşımız Azərbaycan diasporunu təşkil edir. Bəziləri diaspor dedikdə, Azərbaycanın hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı nəzərdə tuturlar. Halbuki Cənubi Azərbaycan, Dərbənd və Borçalıda öz tarixi torpaqlarında yaşayan azərbaycanlılar bu kateqoriyaya daxil deyildirlər.

Azərbaycan diasporunun tarixi qədim olsa da, onun ilkin formalaşma prosesi XX əsrin əvvəllərində başlamışdır. Lakin bu proses yalnız həmin əsrin sonunda təşkilatlanma mərhələsinə qədəm qoymuşdur. Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılarla əlaqə yaradılması, milli həmrəyliyə nail olunması, diasporun təşkilatlanması, onların problemlərinin həlli istiqamətində məqsədyönlü iş aparılması gənc dövlətimizin qarşısında duran tarixi vəzifələrdən birinə çevrildi. Lakin təəssüflər olsun ki, Ayaz Mütəllibov və AXC-Müsavat iqtidarı dönəmində bu sahədə heç bir iş görülmədi. Bu mühüm məsələlərin Azərbaycan iqtidarının diqqətindən kənarda qalmasının nə qədər zərərli bir faktor olduğunu dərk edən görkəmli dövlət xadimi Heydər Əliyev hələ Naxçıvanda Ali Məclisin sədri olarkən, 1991-ci il dekabrın 16-da dünya azərbaycanlılarının beynəlxalq həmrəylik günü haqqında qərar qəbul edilməsinə nail oldu. Eyni zamanda Azərbaycan Respublikasının Ali Soveti qarşısında məsələ qaldırıldı ki, hər il dekabrın 31-də dünya azərbaycanlılarının beynəlxalq həmrəylik günü qeyd edilsin. Beləliklə, cənab Heydər Əliyev yaranmış tarixi şəraitdə həlli vacib problemləri gördüyünü, hadisələrin ardıcıllığını düzgün müəyyənləşdirmək qabiliyyətini bir daha nümayiş etdirdi. Xalqa bağlılıq fenomenal təfəkkür, liderlik keyfiyyətləri, gələcəyi görmək və proqnozlaşdırmaq, onlarla problem və məsələ içərisində əsas olanı dəqiqliklə seçmək bacarığı Prezident Heydər Əliyevin hakimiyyət olimpinin zirvəsinə yüksəlişinin təməlində duran meyarlardır.

1993-cü ildə xalqın təkidli tələbləri ilə hakimiyyətə qayıdan Heydər Əliyev alovlanan vətəndaş müharibəsinin, qardaş qırğınının, parçalanma təhlükəsinin qarşısını almaqla yanaşı, milli varlığımızın qorunub-saxlanması, xalqımızın milli-mənəvi köklərinə qayıdışı, milli-mənəvi dəyərlər sisteminin formalaşdırılması, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların həmrəyliyinə nail olunması istiqamətində ciddi tədbirlər həyata keçirdi. Avropalaşan, qərbləşən, müasirləşən bir islam dövləti milli-mənəvi dəyərlərinə söykənərək, dünyaya səpələnmiş soydaşlarımızı milli-ictimai təfəkkür əsasında vahid ideya — azərbaycançılıq ideyası və vahid məqsədlər ətrafında birləşdirməli idi. Elə bu səbəbdən də prezident Heydər Əliyev xarici ölkələrə bütün səfərləri zamanı orada yaşayan azərbaycanlılarla görüşür, onların həyatı, problemləri ilə tanış olur, təş-

kilatlanmaq, Vətənlə sıx əlaqələr qurmaq üçün müdrik tövsiyələr verir, Azərbaycan Respublikası tərəfindən onlara hər cür dəstək göstəriləcəyini bəyan edir. Azərbaycan dövləti ilə Azərbaycan diasporu arasında əlaqələrin yaranması, intensivləşməsi və diasporun regional, ölkə birliklərinin formalaşması prosesində konseptual fəaliyyət istiqamətlərinin konturları getdikcə daha da aydınlaşırdı.

Müxtəlif mənbələrin məlumatına görə bu gün dünyada 50 milyona qədər azərbaycanlı vardır. Onların 10-12 milyonu tarixi Vətəndən uzaqlarda yaşayır və Azərbaycan diasporunu təşkil edirlər. Diasporun xüsusi çəkisində İran azərbaycanlıları sayca daha çoxdur. Prezident Heydər Əliyev diasporun regional bölgü əsasında parçalanma təhlükəsinin zərərli olduğunu nəzərə alaraq, ABŞ-da Azərbaycan diasporunun nümayəndələri ilə görüşərkən soydaşlarımızı daim milli birliyə, milli həmrəyliyə səsləyir: "Xaricdə yaşayan azərbaycanlıların çoxu Azərbaycanda doğulmayıb. Nə olsun. Məgər, Amerikada yaşayan ermənilər Ermənistanda doğulub. Məgər, onlar Dağlıq Qarabağda doğulub? Amma ermənidirlər, ona görə də Ermənistan haqqında düşünürlər. Amerikada yaşayan azərbaycanlıların isə biri deyir mən İranda doğulmuşam, o biri deyir mən Turanda doğulmuşam. Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyətinin daşıyıcısısan".

Prezident Heydər Əliyev ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, Belçika, İsveçrə, Türkiyə, Yaponiya, Rusiya, Ukrayna, Gürcüstan və digər ölkələrdə Azərbaycan diasporunun nümayəndələri ilə keçirdiyi bütün görüşlərdə təlqin edir ki, milli ideologiyaya söykənməyən, vahid konsepsiyaya əsaslanmayan kortəbii fəaliyyət millətçilik sevgisindən doğsa belə, ziyan gətirə bilər. Ona görə də "milli mən", "fərdi mən" və "ümumbəşəri mən" arasında optimal əlaqəyə əsaslanan fəaliyyətə üstünlük verilməlidir. Böyük xalqların yaşadığı böyük dünyada, güc və qüdrət sahibi olan millətlərin içərisində yaşayıb, təcrid olunmaq, onlara qatılmamaq, əlahiddə həyat tərzi keçirmək qeyri-mümkündür. Lakin bütün hallarda milli ruh qorunub saxlanmalıdır. Qloballaşan dünyada kiçik xalqların milli ruhu mühafizə etməsi getdikcə çətinləşdiyindən diaspor öz milli xüsusiyyətlərini, özəlliklərini, milli-mənəvi dəyərlərini qoruyub-saxlamaq haqqında düşünməlidir. Dünya azərbaycanlılarının Azərbaycana bağlanması, Azərbaycanla yaşaması, ona dəstək olması, onun dövləti imkanlarından və qüdrətindən bəhrələnməsi üçün mənəvi əsas — azərbaycançılıqdır. Prezident Heydər Əliyev bunu nəzərə alaraq demişdir: "Biz azərbaycanlılar bu ideyanı yaratmışıq, biz də yaşatmalıyıq, inkişaf etdirməliyik, onun əsasında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərə inteqrasiyasına nail olmaq deməkdir".

Diasporun təmsilçisi olduğu xalq və dövlət öz imkanları daxilində onun qarşılaşdığı problemlərin həllinə dəstək verməlidir. Təşkilatlanmaq, işlək struktur formalaşdırmaq, həm yaşadığı ölkə daxilində, həm də tarixi Vətəni ilə hərtərəfli əlaqələr yaratmaq diasporun uğurlu fəaliyyətini şərtləndirən mühüm amillərdir. Azərbaycan diasporunun təşkilatlanması, diaspor — Azərbaycan əlaqələrinin genişləndirilməsi və tənzimlənməsi Prezident Heydər Əliyevi daim düşündürür. Müstəqilliyimizin ilk illərindən xarici ölkələrdə güclü ictimai-siyasi, iqtisadi dayaqlara, geniş informasiya şəbəkəsinə malik Azərbaycan diasporuna, respublikamız haqqında həqiqətləri dünya ictimaiyyətinə, transmilli strukturlara çatdıra biləcək milli cəmiyyət və mərkəzlərə böyük ehtiyac duyulurdu. Prezident Heydər Əliyevin 23 may 2001-ci il tarixli sərəncamına əsasən həmin il noyabrın 9-10-da Bakıda keçirilən Dünya azərbaycanlılarının 1-ci qurultayı Azərbaycan diasporunun formalaşmasında, vahid məqsədlər ətrafında birləşməsində xüsusi rol oynadı. Qurultay həm vəzifələrin müəyyənləşdirilməsi, həm də milli həmrəyliyin gücləndirilməsi baxımından misilsiz əhəmiyyət kəsb edir. Möhtərəm prezidentimizin qurultaydakı dərin məzmunlu nitqində də bu məsələlər ön plandadır: "Bizim vəzifəmiz, Azərbaycan dövlətinin vəzifəsi ondan ibarətdir ki, bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərsin, onların həyatı ilə maraqlansın və dövlətimizlə ayrı-ayrı ölkələrdə olan Azərbaycan icması arasında əlaqələri daha da inkişaf etdirsin. Azərbaycanın xaricində yaşayan azərbaycanlılar isə gərək indi müstəqil Azərbaycan ilə daha sıx əlaqələr qursunlar. Bunlar dünyada olan bütün azərbaycanlıların birliyinin, həmrəyliyinin təmin olunması üçün əsas şərtlərdir".

Bu gün Azərbaycan dünyanın mühüm iqtisadi və enerji mərkəzlərindən biri kimi inkişaf edir. Ölkəmizdə köklü islahatlar uğurla həyata keçirilir. Dağlıq Qarabağ probleminə, keçid dövrünün çətinliklərinə baxmayaraq, Azərbaycan bütün dünya azərbaycanlılarının istinad və cazibə mərkəzi, onların hər zaman üz tutacağı Vətəndir, müqəddəs məkandır. 1997-ci ilin avqustunda Amerika Birləşmiş Ştatlarında rəsmi səfərdə olan Prezident Heydər Əliyev Azərbaycan diasporunun nümayəndələri ilə görüşündə soydaşlarımıza müraciətlə demişdir: "Əgər sən azərbaycanlısansa, bilməlisən: dünya azərbaycanlılarının bir müstəqil dövləti var -- Azərbaycan, dünya azərbaycanlılarının bir tarixi Vətəni var -- Azərbaycan. Dünya azərbaycanlıları öz müstəqil dövlətlərini, tarixi Vətənlərini müqəddəs hesab etməli, onun ətrafında birləşməlidirlər".

Azərbaycan Respublikası dünya azərbaycanlılarının müqəddəs Vətəni, müstəqil dövləti olduğunu artıq həyata keçirilən əməli işlərlə sübut etmişdir. Prezidentin İcra Aparatında xaricdə yaşayan azərbaycanlılarla iş üzrə bölmə yaradılması gənc müstəqil dövlətimizin hələ ötən əsrin sonlarından bu sahəyə nə qədər diqqət yetirdiyini bir daha sübut edir.

Dünya azərbaycanlılarının 1-ci qurultayı diasporun həyatında mühüm mərhələyə çevrildi. Dünyanın 36 ölkəsindən 1105 nümayəndənin və 906 qonağın iştirak etdiyi qurultay görülən işlərə yekun vurmaqla bərabər, həm də qarşıda duran vəzifələri müəyyənləşdirdi. Diasporun problemlərinin öyrənilməsi, ayrı-ayrı cəmiyyət və birliklərin fəaliyyətinin əlaqələndirilməsi, Azərbaycan dövlətinin dəstəyinin təmin olunması baxımından qurultayın rolu ölçüyəgəlməzdir.

Dünya azərbaycanlılarının və diasporun ən tanınmış nümayəndələrinin daxil olduğu Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının yaradılması, şura-

nın İdarə Heyətinin seçilməsi, heç şübhəsiz ki, soydaşlarımızla əlaqələrin daha da yaxşılaşmasına xidmət edəcək. Bu gün Almaniyadakı Azərbaycan Cəmiyyətləri Federasiyası, Ukrayna Azərbaycan Konqresi, ümumrusiya Azərbaycan Konqresi, Rusiya Azərbaycanlılarının Federal Milli-Mədəni Muxtariyyəti, Londondakı "Azərbaycanlılar Komitəsi", "Azərbaycan Mədəniyyət Mərkəzi", Brüsseldəki "Azərbaycan Kültür Evi", Parisdəki "Fransa-Azərbaycan Kültür Cəmiyyəti", Nyu-Yorkdakı "Amerika-Azərbaycan Cəmiyyəti", Vaşinqtondakı "Azərbaycan mədəniyyət ocağı", "Amerika-Azərbaycan Şurası" və digər qurumlar uğurla fəaliyyət göstərirlər. Bütün bu cəmiyyət və birliklər daim Azərbaycan Prezidenti Heydər Əliyevin qayğı və diqqəti ilə əhatə olunmuşlar.

Qurultaydakı nitqində Prezident Heydər Əliyev görülmüş işlərə yekun vurur və qarşıya mühüm vəzifələr qoyur: "Azərbaycan diasporu son illər təşkilatlanır və Azərbaycan icmaları, diasporu yaşadıqları ölkədə, ümumiyyətlə, beynəlxalq aləmdə artıq özlərini göstərirlər. Amma bu, bizim diasporun formalaşmasının ilkin mərhələsidir. Hamımız — siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın. Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər. İqtisadi cəhətdən daha da möhkəmlənsinlər, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak edə bilsinlər. O ölkələrin həyatında iştirak edə bilsinlər. O ölkələrin həyatına öz təsirlərini göstərə bilsinlər. Beləliklə də, müxtəlif ölkələrdə Azərbaycanın müstəqilliyini, onun xarici siyasətini təbliğ etməklə yanaşı, Azərbaycanın problemlərinin həll olunmasına yardım etsinlər. Hesab edirəm ki, dünya azərbaycanlıları bu yol ilə getməlidirlər".

Möhtərəm Prezidentimizin fərmanı ilə yaradılmış Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi diasporun təşkilatlanması, milli birlik və milli həmrəylik yaradılması istiqamətində həyata keçirilən tarixi əhəmiyyətli fəaliyyət proqramının aparıcı strukturuna çevrilmişdir. Yaxşı təşkilatlanmış, çevik fəaliyyət proqramı olan diaspor lobbiçiliyin mühüm şərtidir. Heç şübhəsiz ki, yaxın illərdə xarici ölkələrdə regional və beynəlxalq təşkilatlarda Azərbaycan lobbisi də öz sözünü deyəcək, respublikamızın problemlərinin həllinə yardımçı olacaq.